**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA TİKİNTİ MATERİALLARI İSTEHSAL EDƏN SƏNAYE MÜƏSSİSƏLƏRİNİN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI YOLLARI

İxtisas: **5312.01 "Sahə iqtisadiyyatı"**

Elm sahəsi: **İqtisad elmləri**

İddiaçı: **Əhməd Sərkar oğlu Sərkarlı**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə – 2021**

Dissertasiya işi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Enerji və Neft-kimya sahələrinin iqtisadiyyatı və menecment kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər | iqtisad elmləri doktoru, professor<br>**Mehrəli Məmməd oğlu Fərzəliyev** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**Gəncəli Əziz oğlu Gənciyev** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Əli Aydın oğlu Allahverdiyev** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Raibə Məmmədbağır qızı Cəfərova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA həqiqi üzvü, i.e.d., professor

________________ **Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent

________________ **Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor

________________ **İslam Hacı oğlu İbrahimov**

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son dövrlərdə Azərbaycanda iqtisadi inkişafın əsas istiqaməti kimi qeyri-neft sektorunun müxtəlif sahələri hökümət və özəl sektor səviyyəsində diqqət mərkəzində saxlanılır. Burada inkişafın əsas aparıcı qüvvəsi kimi rəqabət amili dayanır və inkişaf meyllərinin yüksələn xətt üzrə olması iqtisadiyyatın prioritet sahələrində rəqabətqabiliyyətliliyin təmin olunmasından birbaşa olaraq asılıdır.

Müasir iqtisadi şəraitdə rəqabət qlobal xarakter almışdır. Buna görə də ölkəmizdə rəqabətqabiliyyətli iqtisadiyyat və rəqabətə davamlı iqtisadi subyektlər vasitəsilə dayanıqlı və davamlı inkişafı təmin etmək üçün iqtisadiyyatın diversifikasiyası siyasəti reallaşdırılmaqdadır. Şaxələndirilmə siyasətinin tərkib hissəsi kimi sənayenin, xüsusilə emal sənayesi sahələrinin prioritet mövqe qazanması, ümumilikdə ölkədə iqtisadi artımı təmin edən əsas amilə çevrilməsi, həmçinin müxtəlif iqtisadi subyektlər səviyyəsində istehsal və xidmət səviyyəsinin keyfiyyətinin yüksəlməsi emal sənayesinin strukturunun təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Emal sənayesinin mühüm sektorlarından biri kimi tikinti materialları istehsalı sahəsi milli sənaye sisteminin əsas həlqələrindən biri hesab edilir. Belə ki, müvafiq sahədə həm zəngin xammal bazası, inkişaf etmək, eləcə də ixracyönümlü istehsalı təşkil etmək və reallaşdırmaq potensialı, ölkədə məşğulluğun təmin edilməsi və digər mühüm aspektlər baxımından fərqlənir. Tikinti materialları istehsalı sahəsi iqtisadiyyatın neft və qaz hasilatı sənayesindən sonra əsas aparıcı sahəsi olan tikinti sənayesinin material təminatı bazası rolunu oynayır. Deməli, tikinti sənayesinin ölkə iqtisadiyyatında aparıcı mövqeyə yiyələnməsi əsasən keyfiyyətli tikinti materiallarının istehsalından, istehsal prosesində keyfiyyət, qiymət, innovasiya, enerji və elmtutumluluq kimi mühüm amillərin nəzərə alınmasından asılıdır. Belə ki, sadaladığımız istiqamətlər həm də öz əksini Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər Dövlət Proqramı və Milli iqtisadiyyatın inkişafına dair Strateji Yol Xəritələrində tapmışdır. Bu baxımdan müvafiq sənaye sahəsində rəqabətlilik amilinin yüksəldilməsi məsələsinin tədqiqi zəruri xarakter daşıyır.

Tikinti materialları istehsalı sahəsi Azərbaycan iqtisadiyyatının emal sənayesində özünəməxsus yer tutur. Həmçinin emal sənayesinin perspektivə malik sferalarından biri kimi hesab edilir. Müvafiq sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin sayı 254, o cümlədən onlardan 90-dən çoxu özəl müəssisələrdir. Müvafiq sahə müəssisələri emal sənayesi müəssisələrinin tərkibində 11% - lə təmsil edilir. Həmçinin tikinti materialları istehsalı ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı 2100-dən çoxdur. Muzdla işləyənlərin sayı orta hesabla 12 min nəfər, ödənilən əmək haqqının orta aylıq məbləği isə təxmini 600 manatdan çoxdur. Bu da ölkə üzrə orta aylıq əmək haqqı göstəricisindən yüksəkdir. Dünyada neft qiymətlərinin azalması qeydə alınan vaxt Azərbaycanda da ölkə üzrə gəlirlərin azalması müşahidə edilmiş və həmin illərdə tikinti materiallarının istehsalı həcmi azalmış lakin ötən il artım qeydə alınmışdır. İstehsalın həcmi 746 milyon manatdır. Təbii ki, bu göstərici potensialdan aşağı olsa da illər üzrə artım tendensiyasının olması perspektivdən xəbər verir.

İxracda da tikinti materialları istehsal edən sənaye müəssisələri inkişaf göstəricilərinə nail olurlar. Belə ki, Norm MMC, Holcim Azərbaycan ASC, Mətanət A şirkəti, Metak, Qazax Sement zavodu, Gilan Tikinti Materialları zavodu, "Fəxrəddin K" MMC və digər müəssisələr xarici bazarlara çıxış imkanı qazanırlar. Qeyd etmək lazımdır ki, ixrac fəaliyyəti həyata keçirilsə də ölkəmizdə tikinti materiallarına olan tələbat daxili imkanlar hesabına tam ödənilmir. Bu da öz növbəsində iqtisadi inkişafı ləngidən və ona maneə törədən amillərdən hesab edilir. Çünki, idxal edilən tikinti materiallarının dəyəri bahadır və onların idxal edilməsi ilə ölkədən xaricə külli miqdarda valyuta axını baş verir. Bu baxımdan ölkəmizdə ixracyönümlü istehsal fəaliyyətini həyata keçirən tikinti materialı istehsal edən sənaye müəssisələrinin iqtisadi baxımdan böyüməsi zəruri şərtdir.

Azərbaycanın işğal altında olan ərazilərinin ölkə Prezidentinin qətiyyətli siyasəti və rəhbərliyi ilə azad edilməsi müxtəlif sahələrdə olduğu kimi sənaye məhsullarının istehsalının artmasına birbaşa təsir edəcək. Yuxarı Qarabağ, eləcə də Kəlbəcər-Laçın iqtisadi rayonlarında tikinti materiallarının rəqabətə davamlı istehsalını təşkil etmək üçün kifayət qədər səmərəli xammal mənbələri mövcuddur. Buna gö-

rə də Azərbaycanda tikinti materialları istehsal edən sənaye müəssisələrinin rəqabət qabiliyyətinin artırılmasının işğaldan azad edilmiş ərazilərdə yeni texnologiyalara əsaslanan "ağıllı" və "yaşıl" tikinti materiallarının istehsalı aspektindən öyrənilməsi ilə bağlı təkliflər irəli sürmək vacibdir.

Ümumiyyətlə rəqabət amilinin və müəssisənin rəqabət qabiliyyətinin, həmçinin tikinti materialları istehsalının səmərəli təşkilinin öyrənilməsi ilə bağlı elmi tədqiqatları akademik Səmədzadə Z.Ə., Şirəliyev V.M., Fərzəliyev M.M., Yusifov E.M., Həsənov İ.C, Həsənov H.K., Əhmədov X.M., Hüseynova T.Ə., Cəfərli H.A., Abbasov Q.A., Şirinov B.H., Bəşirov F.H. və digərləri beynəlxalq səviyyədə M. Porter, A. Smit, A. Marşall, J.J. Lamben, D. Rikardo, C. Hayek, C. Keyns, R. Fatxuddinov, İ. Ansoff və başqaları yerinə yetirmişlər, sahənin öyrənilməsinə əhəmiyyətli dərəcədə diqqət ayrımış, eləcə də müsbət təsir xüsusiyyətlərinə malik təklif və tövsiyələrlə çıxış etmişlər.

Tikinti materialları istehsalı sahəsinin geniş inkişaf potensialının olması, eləcə də ölkə iqtisadiyyatında həm material təminatı baxımından, həm də məşğulluğun təmin edilməsi, əmək haqqının yüksək olması və ixrac qabiliyyətinin günü gündən artması bu sahəni tədqiq etməyə, rəqabət amillərini öyrənməyə, qiymətləndirməyə və mütərəqqi təkliflərlə çıxış etməyə əsas verir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycanda tikinti materialları istehsal edən sənaye müəssisələrinin iqtisadi fəaliyyətinin nəticələri tədqiqatın obyektidir. Tikinti materialları istehsal edən sənaye müəssisələrinin maliyyə-təsərrüfat, istehsal-satış fəaliyyətinin, o cümlədən ümumilikdə onların rəqabət qabiliyyətinin yüksəldilməsinin iqtisadi və metodoloji əsasları isə tədqiqat predmeti kimi çıxış edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycanda tikinti materialları istehsal edən sənaye müəssisələrinin iqtisadi fəaliyyətini, həm ümumi göstəricilər, eləcə də ayrı-ayrılıqda müəssisələr üzrə təhlil etmək, ümumiləşdirmək və müqayisəsini həyata keçirərək sahə üzrə rəqabətli fəaliyyət amillərini müəyyən etməkdir. Belə ki, tədqiqatın qarşısında duran vəzifələrdən biri kimi tikinti materialları istehsal edən sahə müəssisələrinin maliyyə-təsərrüfat, istehsal-satış fəaliyyə-

tinin, o cümlədən ümumilikdə rəqabət qabiliyyətinin yüksəldilməsinin iqtisadi və metodoloji əsasları çıxış edir. İstər yerli iqtisadçı alimlərin, istərsə də xarici tədqiqatçıların müvafiq araşdırmalarının nəticələri və irəli sürdükləri nəzəriyyələrin tələblərinin tətbiqi baxımından öyrənilməsi əsas məqsədlərdən birini təşkil edir.

**Tədqiqat metodları.** Tədqiqat işini yerinə yetirərkən sistemli yanaşma və kompleks təhlil metodundan istifadə edilmiş, bu zaman iqtisadi-riyazi, statistik təhlil, o cümlədən elmi ümumiləşdirmədən istifadə olunmuşdur. Tədqiqat işini yerinə yetirərkən Azərbaycan Respublikasında rəqabət münasibətlərini tənzimləyən normativ hüquqi aktlardan, Dövlət Statistika Komitəsinin rəsmi saytından, elektron və digər nəşrlərindən, eləcə də İqtisadiyyat Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəsmi məlumatlarından, ölkə ərazisində fəaliyyət göstərən müxtəlif tikinti materialları istehsal edən sənaye müəssisələrinin rəsmi göstəricilərindən istifadə edilmişdir. Bundan başqa yerli və beynəlxalq elmi nəşrlərdən istinadlar, müəllif tərəfindən aparılan hesablama və təhlillər tədqiqatın informasiya bazasını təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Azərbaycanda tikinti materialları istehsal edən sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi yollarını müəyyən etmək tədqiqatın əsas məqsədini təşkil edir və bu əsasda qarşıda aşağıdakı mühüm vəzifələrin həll edilməsi dayanır:

- "rəqabət" məhfumunun və rəqabətqabiliyyətliliyin tikinti materialları istehsal edən sənaye müəssisəsi üçün əhəmiyyətinin əsaslandırılması;
- müəssisənin rəqabət qabiliyyətinin dəyərləndirilməsi metodlarının müəyyən edilməsi;
- Azərbaycanda tikinti materialları istehsalı sahəsində rəqabətqabiliyyətliliyi formalaşdıran amillərin müəyyənləşdirilməsi;
- ölkədə tikinti materialları istehsalının mövcud vəziyyətinin təhlili;
- tikinti materialları istehsalı sahəsində əsas təmsilçilərindən biri kimi Norm MMC müəssisəsinin maliyyə təsərrüfat fəaliyyətinin təhlili;

- Norm MMC müəssisəsinin GZİT təhlilinin, o cümlədən Holcim Azərbaycan ASC-nin rəqabətqabiliyyətliliyinin müqayisəli qiymətləndirilməsi;

- tikinti materialları istehsal edən müəssisələrin rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində təkliflərin işlənilməsi;

- müəssisələrdə rəqabətə davamlı innovasiyalı inkişaf strategiyasının tətbiqinin mühüm aspektlərinin müəyyənləşdirilməsi;

- klasterləşmənin Azərbaycanda tikinti materialları istehsalın sahəsində tətbiqinin mümkünlüyü;

- klasterləşmənin rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə istifadə edilməsinin üstün cəhətlərinin əsaslandırılması və bununla əlaqədar təkliflərin irəli sürülməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat nəticəsində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Azərbaycanda tikinti materialları istehsalı müəssisələrinin rəqabət qabiliyyətini formalaşdıran amillər müəyyən edilmişdir;

- rəqabətə davamlı innovasiyalı inkişaf strategiyası təklif edilmişdir;

- potensial klasterin yaradılması zamanı onun güclü və zəif tərəfləri, o cümlədən mövcud imkanlarına diqqət yetirilməsi vacib olan potensial təhdidlər vurğulanmışdır;

- iqtisadi rayonların, o cümlədən işğaldan azad edilən ərazilərin sənaye xüsusiyyəti nəzərə alınaraq tikinti materialları istehsal edən klasterin yaradılması təklif edilmişdir;

- regionlarda sosial evlərin tikintisi məsələsi irəli sürülmüş və əsaslandırılmışdır;

- tikinti materialları istehsalında “start-up”ların yaradılmasının iqtisadi cəhətdən əsaslandırılması həyata keçirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi ölkənin qeyri – neft sektorunun inkişafının prioritet elan edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Belə ki, burada tikinti materialları istehsalı müəssisələrinin ölkə iqtisadiyyatı üçün əhəmiyyəti araşdırılır, ayrı-ayrı müəssisələrin rəqabətqabiliyyətlilik göstəriciləri təhlil edilir, həmçinin onların ekoloji və sosial aspektdən mühüm xüsusiyyətləri vurğulanır.

Tədqiqat işində irəli sürülən təklif və tövsiyələr həm makro səviyyədə, həm də mikro səviyyədə iqtisadi siyasətin müəyyənləşdirilməsi prosesində istifadə edilə bilər. Çünki tədqiqat işi tikinti materialları istehsalı sahəsində mövcud olan ümumi göstəricilər, eləcə də konkret müəssisələr üzrə statistik məlumatlar təhlil edilmiş demək olar ki, bütün istiqamətləri əhatə edilmişdir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin yerinə yetirilməsi prosesində aparılan tədqiqatlar zamanı əldə edilən nəticələr, 2 respublika və 2 beynəlxalq elmi konfransda təqdim edilmiş, o cümlədən biri xaricdə olmaqla 6 elmi məqalə müxtəlif elmi jurnallarda, bir kollektiv monoqrafiyada və elmi əsərlər toplusunda nəşr olunmuşdur.

Dissertasiya işində araşdırmalar ilə əlaqədar verilən təkliflər və əldə edilmiş tədqiqat yekunları Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Biznesin iqtisadiyyatı və menecment" kafedrasında tədris edilən "Tikintidə menecment", "İstehsal menecmenti" və "İnnovasiya menecmenti" fənlərinin tədrisi prosesində istifadə edilir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Neft və Sənaye Univesiteti, Enerji və Neftkimya sahələrinin iqtisadiyyatı və menecment kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən, üç fəsildən, nəticələrdən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Burada 20 cədvəl, 13 qrafik və 15 şəkil vardır. Dissertasiyanın strukturunda giriş 7 səhifədən ibarət olub 11970 işarədən, birinci fəsil 43 səhifə olub 72084 işarədən, ikinci fəsil 38 səhifə olub 63903 işarədən, üçüncü fəsil 38 səhifə olub 66340 işarədən, nəticələr 5 səhifə olub 9340 işarədən və istifadə edilmiş 136 sayda ədəbiyyat siyahısı 12 səhifə olub 19105 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 150 səhifə kompüter yazısından ibarətdir. Dissertasiyanın ümumi mətn hissəsi (cədvəllər, qrafiklər, sxemlər və ədəbiyyat siyahısı istisna edilməklə) isə 203065 işarə təşkil edir

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqat

metodları, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti şərh olunur.

Dissertasiyanın "Tikinti materialları istehsalı müəssisələrinin rəqabət qabiliyyətinin formalaşmasının nəzəri-metodoloji aspektləri" adlanan I fəsli üç yarımfəsildən ibarətdir.

Birinci fəslin "Tikinti materialları istehsal edən sənaye müəssisələrinin rəqabət qabiliyyətinin xüsusiyyətləri" adlanan ilk yarımfəslində rəqabət anlayışı, rəqabətqabiliyyətlilik probleminə müxtəlif iqtisadi yanaşmalar, sənaye sferasında rəqabət siyasəti və onun reallaşdırılması xüsusiyyətləri araşdırılmışdır. Burada rəqabətin istehsal, satış və digər sahələrdə baş verən kompleks proseslərin təzahürü kimi qəbul edildiyi qəbul olunur. Bu, dinamik inkişaf edən, daimi dəyişikliklərə məruz qalan ən mürəkkəb çoxtərəfli iqtisadi anlayışlardan biridir. Rəqabətqabiliyyətlilik termini 1980-ci illərin əvvəllərindən elmi ədəbiyyatda və 1990 - cı illərin sonlarından isə siyasi müzakirələrin obyekti kimi çıxış etməyə başlamışdır. Rəqabət qabiliyyəti bir ölkənin, sənaye sahəsinin və ya iqtisadi subyektin qarşıya qoyduğu məqsədlərə çatmaq üçün rəqibindən üstün olmaq bacarığı kimi, həmçinin rəqabət qabiliyyətli bazarda mövqeləri gücləndirmək və üstünlük qazanmaq kimi başa düşülür.

Tikinti materialları istehsalı sahəsi kompleksinin rəqabət qabiliyyəti konkret olaraq istehlakçıların tələbləri əsasında keyfiyyət standartlarına əsaslanan əmtəələr hazırlamaq, ümumi qəbul olunmuş normanı üstələməyən məsrəflər ilə sənaye müəssisələrinə tikinti materialları istehsal etmək imkanı verən rəqabət prosesində müəyyən üstünlükləri, materialların istehlak dəyəri, müasir bazar xüsusiyyətləri və əmtəə dəyəri, bazardakı vəziyyət, eləcə də rəqib müəssisələrin fəaliyyətilə diktə edilən optimal vaxtda rəqabətli xarici bazara çatdırmaq imkanının mövcud olmasıyla müəyyənləşdirilir.

Müəssisənin rəqabətqabiliyyətliliyi sahibkarların cari və gələcək dövrdə milli, eləcə də dünya bazarlarında qiymətinə və keyfiyyətinə görə xarici və ya yerli rəqiblərdən daha cazibədar əmtəələr istehsal etmək qabiliyyətidir[1].

[1] Abbasov, A.B. Biznesin təşkili və idarə edilməsi. Dərslik / A.B. Abbasov, R.Ə. Abbasova, M.Ə Əliyev. - Bakı: "İqtisad Universiteti Nəşriyyatı", - 2011. - 464 s.

Tikinti materialları istehsalı sferasında fəaliyət göstərən subyektlərin rəqabətini fərqli əlamətlərə - inkişaf səviyyəsinə, xarakterinə və mübarizə metodlarına görə ayırmaq olar.

Yerli istehsal subyektlərinin müasir iqtisadi mühitdə effektiv nəticələr əldə etməsi rəqabətqabiliyyətli fəaliyyətə müasir və yeni starteji baxışın olmasından asılıdır. Müəssisənin rəqabət göstəricilərinin üstünlüyünün hansı istiqamətlərdə olmasının ortaya çıxarılması, eləcə də onun resurslarla təmin olunması səviyyəsi müəssisənin rəqabətli fəaliyyətinə yön verir.

Müəyyən edilmişdir ki, iqtisadi subyektlərin daxili, eləcə də xarici bazarlarda qazandığı rəqabət üstünlüyü onların rəqabətli fəaliyyət imkanlarının mövcudluğunu əks etdirən mühüm göstəricidir. Materialların texniki və digər göstəriciləri istehsalçılara əsas rəqiblərindən bazarda üstün olmağa şərait yaradır. Qiymətləmdirmə müəssisələrə resurslarla təminatı müvafiq formada və istiqamətlərdə formalaşdırmağa rəqabət aspektindən imkan verir.

Sənaye sahəsinə aid müəssisənin yerləşdirilməsinin optimal variantının seçilməsi istehsalı təmin edən şərtlərin formalaşdırılmasına təsir göstərən amillərin sistemli təhlilinə əsaslanır[2]. Müəssisələrin rəqabətli fəaliyyət startegiyasının inkişafı ilə aparılan strateji təhlilin də önəmi və imkanları artmışdır. Buna görə rəqabət strategiyalarının təkmilləşməsinə imkan verən yeni elmi yanaşmaların olması zəruridir. Müvafiq fəaliyyətin icrası ilə əlaqədar düzgün yanaşma sərgiləməyən müəssisələr maliyyələşmə baxımından, eləcə də mənfəətliliyin yüksəldilməsi aspektindən səmərəliliyə nail ola bilməz. Qeyd etmək lazımdır ki, məntiqi nəticə kimi ümumi fəaliyyəti əhatə edən innovasiyaya əsaslanan fəaliyyət strategiyası rəqabətqabiliyyətli müəssisə üçün əsas amildir.

Dissertasiyanın birinci fəslinin "Tikinti materialları istehsal edən sənaye müəssisələrinin rəqabət qabiliyyətinin qiymətləndirilməsi metodları" adlanan 2-ci yarımfəsli tikinti materialları istehsal edən müəssisələrin rəqabətli fəaliyyətinin səmərəli təşkili və idarə edilməsi üçün əsas şərtlər, eləcə də onun düzgün təhlil və ölçülmə metodlarının işlənib hazırlanması ilə əlaqədar istiqamətlər öyrənilmişdir.

[2] Mahmudov, M.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Dərslik / M.M. Mahmudov. İ.M. Mahmudov. – Bakı: "İqtisad Universiteti" nəşriyyatı, - 2011, - 370 s

Ona görə ki, bu rəqabətin effektiv səviyyəsinin qorunub saxlanmasına və bazar iştirakçılarının rəqabətqabiliyyətliliyinin müqayisəli təhlilinin aparılmasına imkan verir.

Tikinti materialları istehsal edən müəssisələrin rəqabət qabiliyyətinin ölçülməsi onların inkişaf göstəricilərinin səviyyəsinə baxmayaraq 3 istiqamətdə baş verir. Qeyd edilən istiqamətlər göstəricilərin milli iqtisadiyyat, tikinti materialları istehsalı sferası və ayrı-ayrı istehsal kompleksləri səviyyəsində ölçülməsidir. Sənaye müəssisələrinin istehsal-satış fəaliyyətinin götəricilərinə görə rəqabətqabiliyyətliliyin dəyərləndirməsi ilk aspekti təşkil edir. Tikinti materialları istehsalı sahəsini təmsil edən sənaye müəssisələrinin rəqabət imkanlarının dəyərləndirilməsində istifadə olunması səmərəli olan metodları bir sıra elmi və iqtisadi mənbələrə əsaslanmaqla sxem 1-də əks etdirilmişdir.

Müvafiq qiymətləndirmə metodlarının əsasını xüsusilə, sənaye müəssisələrinin istehsal gücü, eləcə də istehsal imkanları təşkil edir. Yəni rəqabətqabiliyyətliliyin qiymətləndirilməsində istehsal olunan tikinti materiallarının isthelakçılar tərəfindən əldə edilmə tezliyi, eləcə də spesifik xüsusiyyətləri önəm daşıyır. Tikinti materialının istehlakçı "əldə etməsi" məqsədilə istehsal prosesinin təşkil olunması rəqabət imkanlarına əsaslanmalı və keyfiyyət standartlarına uyğun olmalıdır. Qeyd edək ki, istehsalın rəqabətqabiliyyətliliyinin mühüm olmasına baxmayaraq müəyyən hallarda müxtəlif istiqamətlərdən sənaye müəssisələrinə mütləq üstünlük təmin etmək baxımından bir sıra çatışmazlıqlarla əhatə olunur.




Sxem 1. Analitik və qrafik qiymətləndirmə metodları

Mənbə: müəllif tərəfindən tərtib edilmişdir

Sxemdə əks etdirilən BKQ metodunun əsas məqsədi müəssisənin istehsal etdiyi məhsulların çeşidlərinin inkişaf etdirilməsi üçün prioritetlərin gələcək investisiyalar üçün əsas istiqamət kəsb etməsidir[3]. Digər önəmli metod olan GZİT-i istifadə edərək rəqabət qabiliyyətliliyin qiymətləndirilməsi təşkilati-idarəetmə, istehsal, maliyyə, marketinq, insan resursları, texnologiya sahələrində həyata keçirilir[4]. Yuxarıdakılardan əlavə mütəxəsislərin rəqabət göstəricilərini qiymətləndirmək məqsədilə səmərəli vasitələr kateqoriyasına daxil etdikləri metodlardan biri də rəqabətqabiliyyətlilik çoxbucaqlısıdır. Müvafiq metod müəssisənin və ya məhsulun əsas xüsusiyyətlərinin müqayisə olunmasına, həmçinin göstəricilər arasında olan fərqləri vizual formada təqdim etməyə imkan verir. Rəqabət çoxbucaqlısının formalaşdırılması sənaye müəssisəsinin rəqiblərinə və ya bazarda digər iqtisadi subyektlərə nisbətən xarakterik cəhətlərinin qiymətləndirilməsi məqsədilə istifadə olunan qrafik üsullardan hesab olunur.

Vahid mərkəzdən müxtəlif istiqamətlərə vizual formada yönəldilən, eləcə də tədqiq olunan müəssisə və ya məhsulun əsas əlamətlərini əks etdirən vektorlarla ifadə olunur. Qiymətləndirmə aparılarkən məhsulların çeşidi və dəyəri, müəssisənin istehsal gücü, texniki aspektləri, istehsal müəssisəsində insan resursları və digər önəmli cəhətlər nəzərə alınır. Xüsusilə, qiymətləndirmənin nəticəsi kimi tikinti materialları istehsal olunan sənaye müəssisələri seqmentləşdirməni həsaslıqla həyata keçirməklə liderliyi əldə edə, həmçinin investisiya siyasətini düzgün icra etməklə rentabelliyi təmin edə bilər. Qeyd edilənlər mənfəətin artırılmasına nail olmağa imkan verir.

Dissertasiyanın "Tikinti materialları istehsalı sənayesi müəssisələrinin rəqabət qabiliyyətliliyini müəyyən edən amillər" adlanan I fəslinin III yarımfəslində qeyd olunur ki, iqtisadi məqsədlər baxımından tikinti materialları sənayesinin məhsulları istehsal amilləri istehsalına aiddir və tikinti sektorunun maddi-texniki bazasının əsas hissəsi kimi tikintinin həcminin artmasını və effektiv materialların və konstruksiyaların tətbiqi əsasında texniki inkişafını təmin edir.

---

[3] Борисова, А.В. Применение матрицы БКГ в портфельном анализе на примере компании ОАО «Лукойл» // Теоретические и прикладные аспекты современной науки. – 2014, – №3-5. – С. 32-36

[4] Neil Ritson, Strategic Management, Neil Ritson & Ventus Publishing ApS, - 2008, ISBN 978-87-7611-417-5. - p 56

Sənaye sahəsi tikintinin sənayeləşdirilməsi, xərclərin azaldılması, metal və taxta materiallara qənaət edilməsi və milli iqtisadiyyatda kapital qoyuluşlarının səmərəliliyinin artırılması üçün əhəmiyyətlidir. Ölkədə müəssisələrin rəqabətli fəaliyyətinin iqtisadi əsasları ilə yanaşı hüquqi aspektləri və vəzifələri də mövcuddur[5].

İstehsal-satış fəaliyyətinin rəqabət qabiliyyətinə malik olması məqsədilə istehlakçıların tələblərini yerinə yetirmək, eləcə də digər amillərlə bərabər marketinq strategiyasının mövcudluğu müssisələr üçün kifayət deyil. İstehsalçılardan tikinti materialının istehlakçıya uyğun qiymət və keyfiyyətlə çatdırılması məqsədilə logistik strategiya təmin olunmaqla icra edilir. Tikinti materialları istehsalı sahəsi subyektlərinin rəqabətli fəaliyyəti prosesində əsas önəm sənaye sahəsinin texniki təminatı məsələsinə, o cümlədən istehsal fondlarının müasirləşdirilməsi və proqressiv vasitələrin tətbiqi imkanlarının tədqiq edilməsinə yer verilməsidir.

Müasir iqtisadi şəraitdə Azərbaycanda emal sənayesi üzrə göstəricilərin yüksəldilməsi və infrastrukturun inkişaf etdirilməsi məqsədilə bir çox sahələrdə olduğu kimi tikinti materialları istehsalı sahəsində də inzibati stimullaşdırma tədbirləri həyata keçirilir. Region ölkələri arasında rəqabətli enerji qiymətlərinin Azərbaycanda olması ağır sənaye və maşınqayırma sektorunun istehsal imkanlarının artırılması üçün geniş imkanlar təqdim edir. Birmənalı olaraq rəqabəti təmin edən amillərin mövcudluğuna baxmayaraq, sənaye müəssisələrin istehsal prosesinin stimullaşdırılması zamanı xarici təcrübə öyrənilməli və spesifik formada istifadə olunmalıdır.

Ümumiyyətlə, S&P qlobal reytinq təşkilatı tikinti materiallarının müəssisələrinin rəqabətli mövqeyinin müəyyən edilməsində bir sıra amillərə xüsusi diqqət yetirir[6]. Bu amillər müvafiq yarımfəsildə tədqiq edilmişdir.

---

[5] Sərkarlı, Ə.S.,Tikinti materialları istehsal edən müəssisələrin innovasiya fəaliyyətinin əsas istiqamətləri//Bakı: Azərbaycanın aqrar elmi, Elmi-nəzəri jurnal, -2018. № 1. - s 183-186

---

[6.] S&P Global Ratings, Criteria, Corporates, Industrials: Key Credit Factors For The Building Materials Industry, - 2013. - pp 15.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, sənayecə inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda tikinti materialları sahəsində istehsal daha çox materialtutumlu və enerjitutumludur. Müvafiq sənaye sahəsində istiehsal edilən məhsulların maddi baxımdan baha başa gəlməsi qiymət rəqabətindən istifadə edilməsi prosesini çətinləşdirir. Qeyd etməliyik ki, tikinti materialları istehsalı sahəsində enerji qənaəti rəqabət üstünlüyünü təmin etmək üçün ən vacib amillərdən biri kimi qiymətləndirilməlidir.

Dissertasiyanın "Azərbaycanda tikinti materialları istehsal edən sənaye müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin təhlili və dəyərləndirilməsi" adlanan II fəsli üç yarımfəsildən ibarətdir. II fəslin "Azərbaycanda tikinti materialları istehsalı sənayesinin inkişafının mövcud vəziyyəti" adlanan I yarımfəslində Azərbaycanda iqtisadi inkişafın islahatlar mərhələsində xammal sənayesində layihələrin uğurla reallaşdırılması ilə yanaşı emal sənayesinin müxtəlif sahələrinin, o cümlədən tikinti materialları istehsalı sahəsində inkişafın əldə olunması istiqamətində atılan addımların məntiqi davamı kimi emal sənayesinin ayrı-ayrı sahələri üzrə dövlət proqramları və müxtəlif tədbirlər həyata keçirilməsi qeyd edilir.

Bununla da iqtisadiyyatın şaxələndirilməsi və emal sənayesi sahələrinin dayanıqlılığının artırılması ölkədə sosial-iqtisadi inkişafa nail olunması, eləcə də iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından böyük imkanlar yaradır. Tikinti materialları istehsalı sahəsi emal sənayesinin aparıcı sferalarından biri kimi 2019-cu ildə ümumilikdə 254 olmaqla, 244 özəl və 10 dövlət müəssisəsi kimi təmsil olunur. Bu istehsal sahəsində muzdla çalışanların orta siyahı sayı 12 min nəfərdən çoxdur. İstehsal edilən tikinti materiallarının həcmi 2018-ci ildə 731,5 milyon manat və 2019-cu ildə isə 746,5 milyon manat təşkil etmişdir. Ölkədə istehsal edilən sənaye məhsulunun ümumi dəyərində sahənin faizlə payı 2018-ci 1,5 faiz, 2019-cu ildə isə 1,6 faiz olmuşdur. Tikinti materialları istehsalı ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı 2017-ci ildə 1900, 2018-ci ildə 1972 və 2019-cu ildə 2114 olmuşdur[7].

---

[7]https://www.stat.gov.az/source/industry/ - Dövlət Statistika Komitəsinin rəsmi saytı

Ölkədə tikinti materialları istehsal edən sənaye müəssisələri iqtisadi fəaliyyətin şaxələndirilməsi siyasətində mühüm yerə malikdir. Emal sənayesi makro səviyyədə inkişafa səbəb olan prioritet sahədir. Dinamik iqtisadi artımın təşkili və təmin edilməsi yalnız dayanıqlı iqtisadi fəaliyyət nəticəsində mümkün ola bilər. Tikinti materialları istehsalı sahəsi həmçinini iqtisadi infrastrukturun inkişafını xarakterizə edən əsas şərtlərdən birini özündə ifadə edir. Müvafiq sənaye sahəsində iqtisadi siyasətin əsas vəzifələrindən biri yüksək keyfiyyətə malik, innovativ tələblərə uyğun olan, o cümlədən enerjiqoruyucu materialların istehsalı ilə məşğul olan sənaye müəssisələrinin mövcudluğu, onların fəaliyyətinin səmərliliyinin artırılması və bununla da rəqabətqabiliyyətlilik göstəricilərinin yüksəlməsinə nail olmaq kimi qəbul edilməlidir.

Dissertasiyanın ikinci fəslinin "Tikinti materialları istehsalı müəssisələrinin maliyyə və təsərrüfat fəaliyyətinin təhlili" adlanan II yarımfəslində sahəyə daxil olan müəssisələrin məlumatlarının istifadə edilərək təhlili ilə əldə edilən nəticəyə əsaslanaraq gələcək dövr üçün müəyyən bir fəaliyyət istiqaməti tərtib etmək və sənayenin müvafiq sahəsində qərarların qəbuluna nail olmaqdır.

II fəslin ikinci yarımfəslində Norm MMC və Holcim ASC-nin maliyyə hesabatlarına əsasən iqtisadi fəaliyyəti təhlil edilmiş, eləcə də maliyyə nəticələrinin təhlili aşağıdakı mühüm vəzifələri müəyyən edilmişdir:

- balans göstəricilərinin, o cümlədən xalis mənfəət dinamikasının dəyərləndirilməsi;
- balans mənfəətinin quruluşu və tərkib elementlərinin öyrənilməsi;
- balans mənfəətinə və məhsulun satışından əldə edilən mənfəətə təsir göstərən amillərin müəyyən edilməsi və onların kəmiyyətcə hesablanması;
- rentabellik göstəricilərinin hesablanması.

Təhlilə Norm MMC-nin 2016–2019-cu illəri əhatə edən maliyyə vəziyyəti və mənfəət və zərər haqqında hesabatları üzrə göstəricilər cəlb edilmişdir. Əsas vəsaitlərin istifadəsinin effektivliyinin təhlili, dövriyyə vəsaitlərindən istifadənin effektivliyi, 2016 və 2019-cu illər ərzində Norm MMC müəssisəsinin özünəməxsus kapitalının

istifadəsinin səmərəlilik göstəricisi, müvafiq dövrdə onun aktiv və öhdəliklərinin qruplaşdırılması, ödəniş qabiliyyətliliyinin öyrənilməsi, həmçinin Norm MMC müəssisəsinin maliyyə dayanıqlılığı cədvəl 1-də təhlil edilmişdir.

**Cədvəl 1. Dövriyyə vəsaitlərindən istifadənin effektivliyi**

| Göstəricilər | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| Satışın həcmi, min man | 85,992 | 126,272 | 149,447 | 149,210 |
| Qısa-li aktivlərin orta illik dəyəri, min man | 52,358 | 49,038 | 57,326 | 115,436 |
| Satışın maya dəyəri, min manat | 62,551 | 75,693 | 86,973 | 89,944 |
| Mənfəət, min manat | 0,302 | 34,689 | 34,806 | 30,087 |
| Qısamüddətli aktivlərin dövretmə əmsalı , (1/2) | 1,64 | 2,57 | 2,6 | 1,3 |
| Qısamüddətli aktivlərin yüklənmə əmsalı, (2/3) | 0,84 | 0,65 | 0,66 | 1,3 |
| Qısamüddətli aktivlərin rentabelliyi, %, (4/2), | 0,01 | 0,71 | 0,61 | 0,3 |

Cədvəl 1-də ifadə edilmiş məlumatların təhlilinə əsasən qısamüddətli aktivlərin dövretmə əmsalı 2016-cı ildə 1,64 olmuş, 2017-ci ildə isə 2,57-yə və 2018-ci ildə isə 2,6-ya qalxmış, 2019-cu ildə isə 1,3-ə qədər azalmışdır. Dövriyyənin sayı nə qədər çox olarsa müəssisəyə fəaliyyətini həyata keçirmək üçün bir o qədər az vəsait tələb olunur. Qısamüddətli aktivlərin yüklənmə əmsalı 2018-ci ildə azalmış, 2019-cu ildə artmışdır. Bu isə o deməkdir ki, 2019-cu ildə satılmış məhsulların dəyərində qısamüddətli aktivlərin payı yüksək olmuşdur. Qısamüddətli aktivlərin rentabelliyi 0,3 %-ə qədər azalmışdır. Bu göstərici dövriyyə aktivlərinin istifadə edilməsinin effektivliyinin 2018-ci illə müqayisədə azaldığını 2016-cı illə müqayisədə isə artırılmasını ifadə edir. Həmçinin istehsalın həcminin artırılması və qiymət artımının qısamüddətli aktivlərin effektivliyinin və rentabelliyinin artırılmasına təsiri olduğunu qeyd etmək lazımdır. Müəssisə aktivlərinin əmələgəlmə mənbələri fəaliyyətin nəticəsinin effektiv olması baxımından əhəmiyyətli olması cədvəl 2-də vurğulanmışdır.

**Cədvəl 2. 2016-2019-cu illər ərzində Norm MMC-nin özünəməxsus kapitalın istifadəsinin səmərəlilik göstəricisi**

| **Göstəricilər** | 2016 | 2017 | 2018 | 2019 | Baza ili üzrə dinamika % |
|---|---|---|---|---|---|
| Nizmnamə, min man | 161,962 | 161,962 | 161,963 | 161,963 | 0,1 |
| Valyuta, min man | 239,934 | 234,888 | 228,341 | 288,696 | 20 |
| Uz-li öhdəlik, min man | 68,771 | 63,950 | 28,850 | 19,408 | -72 |
| Mənfəət, min man | 0,302 | 34,389 | 34,806 | 30,087 | 922 |
| Muxtariyyət əmsalı, (1/2) | 0,67 | 0,69 | 0,7 | 0,6 | -10,4 |
| Maliyyə dayanıqlılğı əmsalı((1+3)/2) | 0,96 | 0,96 | 0,84 | 0,6 | -37,5 |
| Nizamnamə kapitalı rentabelliyi,%(4/1), | 0,01 | 0,21 | 0,21 | 0,2 | 192 |

Cədvəl 2-dən əks etdirilən təhlildən müəyyən etmək olur ki, müəssisənin maliyyə sərbəstliyi 10%, həmçinin maliyyə dayanıqlılığı əmsalı da əvvəlki ilə nisbətdə 37 faiz azalmışdır. Qeyd edilən iqtisadi subyektin maliyyə sərbəstliyinin, eləcə də maliyyə dayanıqlılığının aşağı olması onun nizamnamə kapitalının yüksəldilməsini tələb edir. Müəssisənin iqtisadi, habelə maliyyə təsərrüfat göstəricilərinin təhlil edilməsi onun fəaliyyətinin səmərəliliyini əks etdirir. Təhlil zamanı müəssisənin son dövrlərdə baş verən iqtisadi və digər proseslərdən yayınmalara düzgün reaksiyalar verməsi nəticəsində müsbət tendensiyanın olması müəyyən olunmuşdur.

Dissertasiyanın II fəslinin "Tikinti materialı istehsal edən sənaye müəssisələrinin rəqabət qabiliyyətinin qiymətləndirilməsi" adlı III yarımfəslində iki müəssisənin, Norm MMC və Holcim ASC-nin rəsmi maliyyə hesabatlarına əsasən bir sıra istiqamətlər üzrə rəqabət çoxbucaqlısının qurulması vasitəsilə rəqabətlilik imkanları müqayisəli qaydada dəyərləndirilmişdir. Qurulan rəqabət çoxbucaqlısı bir sıra göstəricilərin yüksək olmasına görə Norm MMC-nin müəyyən üstünlüyünün olmasını ortaya çıxarmışdı:

- satışın həcmi;
- mənfəətin miqdarı;
- cari aktivlər;

- kapital göstəricilərinə görə daha rəqabət qabiliyyətli müəssisə kimi dəyərləndirilə bilər.

Qrafik 1-də qiymətləndirmədə 2018-ci ildə Holcim Azərbaycan ASC-nin mənfəətinin 7,067 min manat, Norm MMC-nin mənfəətinin isə 34, 806 min manat olması qrafiki şəkildə əksini tapır. Onlar arasında fərq 27,739 min manat təşkil edir. Növbəti illərdə Holcim ASC-nin istehsalı prosesinin təşkilinin səmərəliliyini yüksəltmək rəqabətli mövqeyə nail olmaq məqsədilə imkanları mövcuddur.

Ümumiyyətlə ixrac imkanlarını dəyərləndirməklə xarici bazara çıxmaqla bağlı fəaliyyətlərdə daha dayanıqlı iqtisadi siyasət yürütməlidir. Daxili bazrada kənar rəqabətlə üzləşən istənilən sənaye müəssisəsi dolayı şəkildə valyuta riskinin təsirinə məruz qalır[8].




**Qrafik 1. Müəssisələrin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsinin çoxbucaqlı modeli**

[8] Kazımlı, X. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Dərs vəsaiti / X. Kazımlı, İ. Quliyev. - Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, – 2011. - 187 s.

Müqayisə zamanı Norm MMC-nin həm klinker, həm də sement istehsalında rəqibini üstələdiyi müəyyən edilir. Bu Holcim Azərbaycan ASC-nin istehsal gücü daha az olması deməkdir. Müqayisədə hər iki müəssisənin mənfəət və zərər haqqında 2018-ci il üzrə hesabatında onların il üzrə əldə etdiyi mənfəət də istifadə edilmişdir.

Qeyd edək ki, Norm MMC-də işçi sayının az olmasına baxmayaraq rəqabətqabiliyyətlilik aspektindən dəyərləndirdikdə daha az işçi ilə daha çox mənfəətin əldə edilməsi müəssisədə innovasiyanın tətbiqinin yüksək səviyyəsi kimi dəyərləndirilə bilər.

Dissertasiyanın “Azərbaycanda tikinti materiallari istehsal edən müəssisələrin rəqabət qabiliyyətinin təkmilləşdirilməsi yolları” adlanan III fəsli üç yarımfəsildən ibarətdir. Üçüncü fəslin “Tikinti materialları istehsal edən müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətləri” adlanan I yarımfəslində müəyyən edilmişdir ki, tikinti materialları istehsalı sahəsinin rəqabət qabiliyyətinin artırılması həmin sənaye sahəsini formalaşdıran və təmsil edən təsərrüfat subyektlərinin fərdi xüsusiyyətlərinin təkmilləşdirilməsindən asılıdır.

Tikinti materialları istehsalı müəssisələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi modernləşdirilmə vasitəsilə həyata keçirilməsi daha yüksək nəticələr əldə edilməsinə səbəb ola bilər. Bundan başqa qeyd edilir ki, buraya həm uçot siyasətinin düzgün təşkili, əsas sənaye istehsal fondlarının istehsala tam gücü ilə cəlb edilməsinin təmin edilməsi, eləcə də işçi heyətinin innovativ texnologiyadan istifadə etmə bacarığının yüksəldilməsi həyata keçirilməlidir. Təkmilləşdirmə rəqabətliliyə nail olunmasının ən mühüm yollarından biri kimi qəbul edilməlidir.

Mövcud vəziyyətdə tikinti materialları istehsal edən sənaye müəssisələrində innovasiyaların tətbiqinin səmərli olması məqsədilə əsas amil sahələrarası fəaliyyət strategiyasını uzlaşdırmaq qabiliyyətidir. Əvvəlcə sənaye subyektlərinin istehsal planı formalaşdırılarkən müvafiq subyektin müəyyən dövr ərzində məhsuldar, eləcə də effektiv istismarının təmin olunması məqsədilə mövcud şəraitdə innovativ texnologiyalar və avadanlıqlara əsasən qurulan istehsal prosesinin təşkili prioritet təşkil etməlidir. Müvafiq addımla texnoloji

inkişafın nəticələrinin iqtisadi fəaliyyətlə uzlaşması, elmi, o cümlədən innovativ nailiyyətlərin materialların istehsalında tətbiq edilməsi xarici təcrübədə "yaşıl" tikinti materialları kimi qəbul edilən yeni növ tikinti materiallarının istehsalını stimullaşdırmaqla yerli istehsallı materialların rəqabətə davamlılığının yüksəlməsinə təsir edə bilər.

Xərclərin strukturunda innovasiyaların tətbiqi ilə bağlı xərclərin azlığı da sahənin inkişafını ləngidən amillərdən biri kimi qiymətləndirilməlidir. Bu fərq isə xərc siyasətinin düzgün təşkili ilə yalnız innovasiyalı və yüksək rəqabətqabiliyyətli istehsal ilə aradan qaldırıla bilər.

Rəqabətqabiliyyətliliyin artırılması məqsədilə innovasiya menecmentinin tətbiqi əsasən məhsulların tədqiqi və təkmilləşdirilməsinə (MTT) əsaslanır [9].

Müəssisələr yüksək texnologiyalardan istifadə etməklə keyfiyyətli və müasir standartlara cavab verən material istehsal edərək rəqabət mübarizəsində gözlənilən nəticəni əldə edə bilər. Tikinti materiallarının inkişafı, "yaşıl", enerjiyə və xərclərə qənaət edən materialların istehsalı müəssisənin rəqabətqabiliyyətliliyinə bir də o zaman müsbət təsir edə bilər ki, sənaye müəssisəsi öz istehsal strategiyasını elmi və texnoloji potensialın vəhdəti əsasında yüksək ixtisaslı kadr faktoruna önəm verərək istehsalın mərkəzində bu faktordan ətraflı şəkildə istifadə etsin. Həmçinin rəqabətqabiliyyətliliyə nail olmuş müəssisələrin təcrübəsi və imkanları əsasında klasterlər yaradılmalıdır.

Dissertasiyanın müvafiq fəslinin "Tikinti materialı istehsal edən müəssisələrin rəqabətədavamlı innovasiyalı inkişaf strategiyası" II yarımfəslində müvafiq sahə üzrə fəaliyyət göstərən müəssiələrin fəaliyyətin təkmilləşdirilməsi məqsədilə innovasiyalı fəaliyyət istiqaməti müəyyənləşdirilərkən ən vacib məqamlardan biri də, tikinti materialları istehsal edən sənaye müəssisələrində yeni, innovativ məhsullar bölmə və ya şöbəsinin yaradılmasının vacibliyi müəyyən edilir.

---

[9] Ələkbərov, Ə.H. Menecment. Dərslik / Ə.H. Ələkbərov, M.Ə. Vəliyev, S.H. Pünhani.- Çaşıoğlu, - 2013, - 600 s.

Həmçinin sənaye müəssisələrində mövcud olan strukturların tədqiqat və təkmilləşdirmə üzrə işləri tələblərə uyğun şəkildə qurulması və tərtib edilən rəqabətli fəaliyyət strategiyasının əhəmiyyəti qeyd edilir. İnnovasiyalı fəaliyyətin effektiv təşkil edilməsi həmçinin innovasiyanın səmərəli tətbiqindən asılıdır. Qeyd edək ki, innovasiyalı istehsalın təşkil edilməsi zamanı müəyyən çətinliklər də yaranır ki, bunları aradan qaldırmaq lazımdır. Bu çətinlikləri yaradan amilləri aşağıdakı kimi göstərmək olar:

- sənaye müəssisələrinin maliyyə resurslarının çatışmazlığı;
- müəssisələrdə adətən innovasiya potensialından az istifadəsi;
- müasir avadanlıq və istehsal metodlarının tətbiqinin maliyyə resursları tələb etməsi;
- müvafiq sahədə peşəkar kadr problemi;
- innovasiya ilə əlaqəli olan tikinti şirkətləri və elmi-tədqiqat mərkəzləri ilə əlaqələrin dərin olmaması;
- innovativ fəaliyyətin reallaşdırılmasına dövlətin maddi yardımının az olması;
- tikinti materiallarının innovasiyalı istehsalında istifadə edilən yeni texnologiyalar haqqında məlumatın məhdudluğu;
- yeni nəsil məhsullara qarşı istehlakçıların mühafizəkar olması;
- -innovasiyalı tikinti materiallarının istehsalının tənzimləyən qanunvericilik bazasının olmaması;
- riskin çoxluğu;
- innovasiyaya çəkilən xərclərin geri dönüşünün uzunmüddətli xarakter daşıması;
- Azərbaycanda yüksək texnologiyalı istehsalın formalaşma mərhələsində olması.

Tikinti materialları istehsal edən sənaye müəssilələrində reallaşdırılan inkişaf strategiyalarının təkmilləşdirilməsi ilə bağlı təsir edən faktorlar kimi aşağıdakılar təklif edilmişdir:

- təşkilati və idarəetmə prosesləri (yeni və daha inkişaf etmiş məhsul və xidmət növlərinin inkişafı, strategiyanın və taktikanın inkişafı və ümumilikdə müəssisənin inkişafı, qərar qəbuletmə proseslərinə informasiya dəstəyi);

- iqtisadi amillər (müəssisənin maliyyə planlaşdırılması, mənfəət artımının, daxili ehtiyatların təhlili və axtarışı, istehsal üçün iqtisadi stimullar, vergi planlaması);

- innovativ məhsul və xidmətlərin yaradılması, bazardakı məhsullarla müqayisədə elmi, texniki, texnoloji, dizayn baxımından fərqli məhsulların rəqabət üstünlüyünü təklifi ilə təmin etmək;

- insan resurslarının strukturunu və tərkibinin təkmilləşdirilməsi;

- müəssisənin istehsal imkanlarının və inkişaf dinamikasının qiymətləndirilməsi;

- istehsalın prosesinin və potensialının dağıdıcı tendensiyalarının və proseslərinin müəyyən edilərək aradan qaldırılması;

- istehsala və məhsulların keyfiyyətinə təhlükə törədə biləcək amillərin təsirlərinin səbəbləri, mənbələri, xüsusiyyətləri və intensivliyinin müəyyən edilməsi;

- istehsala, o cümlədən istehsalın resurs təminatına və istehsala xidmətlərə mənfi təsir edə biləcək amillərin təsirlərinin proqnozlaşdırılması;

- mövcud vəziyyətin sistemli-analitik öyrənilməsi və tədqiqi;

- sənayedə inkişaf tendensiyalarının öyrənilməsi, eləcə də müəssisə üçün rəqiblər və digər subyektlər tərəfindən yaradıla biləcək təhlükələrə qarşı məqsədli tədbirlərin hazırlanması.

Dissertasiyanın III fəslinin “Tikinti materialı istehsal edən müəssisələrin rəqabətqabiliyyətliliyinin artırılmasında klasterləşmənin tətbiqi” III yarımfəslində istehsal ilə məşğul olan müəssisələrin klasterləşməsinin formalaşmasının onların daxili potensialının, həm də dövlət tənzimlənməsinin təsiri altında baş verən kompleks bir proses olduğu qeyd edilir. Bu yarımfəsildə M. Porterin klasterləşmə anlayışı altında müəssisələrin, ixtisaslaşmış təchizatçıların, əlaqəli sənaye sahələrindəki firmaların və dəstəkləyici təsisatların, universitetlər, peşə-təhsili məktəbləri, peşə birliklərinin və s. coğrafi təmərküzləşməsini ifadə edən fikrinə əsaslanılmışdır.

Azərbaycanda sahə klasterlərinin formalaşdırılması tikinti materialları istehsalı sahəsində işlə təmin olunma səviyyəsinin yüksəldilməsi, emal sənayesinə aid olan tikinti materialları istehsalının həcminin artırılması, həmin sahə ilə əlaqəli olan xidmətlərin səviyyəsi-

nin yüksəldilməsi, sənaye sferasında fəaliyyətdə olan kiçik, eləcə də orta sahibkarlıq subyektlərinin istehsal prosesinin dəstəklənməsi, tikinti materialları sənayesində infrastrukturun yenidən qurulması ilə nəticələnəcəyi qənatinə gəlinmişdir. Həmçinin klasterlərin yaradılması regionların sosial-iqtisadi cəhətdən inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malik olduğu öz əksini tapır.

Belə ki, istehsalın həcminə görə fərqlənən üç iqtisadi regionu qeyd edə bilərik. Bunlar Naxçıvan iqtisadi rayonu, Aran iqtisadi rayonu və Gəncə-Qazax iqtisadi rayonudur. Bu iqtisadi rayonlar həm iqtisadi – coğrafi mövqeyinə, həm tikinti materiallarının istehsalı üçün əlverişli xammal ehtiyatına və mühüm nəqliyyat qovşaqlarının üzərində yerəşir.

Tikinti materialları istehsalı sahəsində inkişafı stimullaşdıran ən mühüm amil logistikanın inkişaf səviyyəsidir ki, yuxarıda qeyd etdiyimiz iqtisadi rayonlar yol infrastrukturu, relyef və ölkənin bütün regionlarına və ixrac istiqamətlərinə yaxınlıq baxımından daha effektiv yerləşməyə malikdir. Klasterləşmə mexanizminin tətbiq edilməsi həmin regionların, o cümlədən ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına təkan verməklə onların rəqabət qabiliyyətini artıra bilər.

Müəssisələrin iqtisadi fəaliyyətinin təhlili nəticəsində onların müxtəlif çatışmazlıqlarının olması aşkar edilmişdir ki, bunları aradan qaldırmaqla müəssisənin rəqabət qabiliyyətini artırmaq üçün aşağıdakı təklif edilir:

- məhsulların satışının artırılması yollarını müasir imkanlarla dəstəkləmək;
- məhsulların keyfiyyətinin mütəmadi artırılması;
- xərclərin azaldılması;
- kadrların ixtisasının mütəmadi artırılması;
- innovasiyalı inkişaf siyasətinin tətbiqi.

Sadalananlardan əlavə ucuz xammal bazasının əldə edilməsi, o cümlədən nəqliyyat – logistika xərclərinin azaldılması da rəqabət üstünlüyünü təmin edən əsas faktorlardan biridir.

Tikinti materialları sənayesinin Azərbaycan iqtisadiyyatının inkişafındakı rolunu nəzərə alaraq bu sahənin inkişafının təmin edilməsi və daxili tələbatın yüksək standartlara cavab verən məhsullar vasitəsilə ödənilməsi istiqamətində fəaliyyətin aparılması ölkə əhə-

miyyətli mühüm bir işdir. Xüsusilə sahədə rəqabəti təmin etməklə nail oluna biləcək məqsədə çatmaq işin səmərəli təşkilindən asılıdır. Münbit rəqabət mühiti milli tikinti materialları sənayesinə genişlənməyə və xaricə yol tapmağa imkan verəcək.

## NƏTİCƏLƏR

Tikinti materialları istehsal edən sənaye müəsssiəsələrinin həm daxili bazarda, həm də ixraca istiqamətlənən fəaliyyəti sahəsində rəqabət qabiliyyətini və səmərəliliyinin yüksəltmək və istehsal etdikləri məhsulların beynəlxalq standartalara cavab verməsini təmin etmək üçün aşağıdakı işlərin görülməsi məqsədəmüvafiq olardı:

- Bir sıra tullantıların sement və əhəng istehsalı və yol tikintisi zamanı faydalı xammal kimi istifadə edilməsinə geniş yer verilməlidir;
- "Yaşıl" tikinti materiallarının geniş istehsalı və istifadəsi istiqamətində maariflləndirici xarakterli təbliğat işləri aparılmalı, belə tip istehsal sahələrinə vergi, gömrük və digər güzəştlər tətbiq edilməlidir;
- Respublikanın müxtəlif ərazilərində yerləşən tikinti materialları istehsalında potensial xammal yataqların işlənməsinə investisiyaların cəlb edilməsi və yerli əhalinin həmin sahələrdə işlə təmin edilməsi diqqət mərkəzində saxlanılmalıdır;
- Ölkənin tikinti sektorunun tələbatını tam ödəmək və eləcə də rəqabətə təkan verəcək iqtisadi mühitin yaradılması və dəstəklənməsi məqsədilə müasir standartlara malik istehsal müəssisələrinin, sənaye parklarının yaradılmasını xarici investisiyanın cəlb edilməsi ilə həyata keçirmək;
- Müvafiq sahədə "start-up" layihələrin reallaşdırılmasına münbit şərait yaradılması sahəsində işləri davam etdirmək;
- Müəssisələrdə idarəetmənin səmərəliliyinin artrılması və investorların cəlb edilməsi məqsədilə maliyyə hesabatlılığın şəffaflığının qorunması və beynəlxalq standartlara uyğun tərtib edilməsi təmin edilməlidir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1.Müasir dövrdə Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılmasının əsas faktorları: nəzəri və metodoloji yanaşma // Bakı: Azərbaycanın Vergi Jurnalı, - 2017. № 2 (134), - s. 137-146.

2.Tikinti materialları istehsal edən sənaye müəssisələrində rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi metodları // Bakı: Odlar Yurdu Universitetinin Elmi - Pedaqoji xəbərləri-2017.№46-s.99-104

3.Tikinti materialları sənayesinin iqtisadi inkişafın təmin edilməsində rolu // Respublikası Prezidenti yanında DİA, Müasir dövrdə davamlı inkişafın əsas istiqamətləri adlı Respublika elmi-praktik konfransının materialları – Bakı: 2017. - s. 451-459.

4.Müasir dövrdə tikinti materialları istehsalının innovasiyayönümlü inkişaf istiqamətləri // "AR nəqliyyat-yol kompleksinin inkişaf perspektivləri" mövzusunda Respublika elmi-praktik konfransının materialları –- Bakı – 2017. səh 101-104.

5.Основные особенности развития промышленности строительных материалов в Азербайджане // Экономика и предпринимательство, № 12(ч2) (89-2)Москва: - 2017г,с 333-338.

6.Tikinti materialları istehsal edən müəssisələrin innovasiya fəaliyyətinin əsas istiqamətləri // Bakı: Azərbaycanın aqrar elmi, Elmi-nəzəri jurnal, -2018. № 1, s 206

7.Tikinti materialları istehsal edən müəssisələrin rəqabətqabiliyyətliliyinin artırılmasında klasterləşmənin tətbiqi// Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı,№1-2018.s.119-130

8.Tikinti materialları istehsal edən müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətləri // Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı, № 2 - 2018. s. 181-188

9.The role of joint venture in the development of Azerbaijan industry // Building İnnovations 2019 II Ukrayna – Azərbaycan konfransının elmi materiallar toplusu – Poltava: 23-24 May 2019. s. 619-623

10.Construction materials industry in Azerbaijan: current situation and prospects for development // Building İnnovations 2020 III Ukrayna – Azərbaycan konfransının elmi materiallar toplusu – Poltava: 1-2 İyun 2020. - s. 398-401

Dissertasiyanın müdafiəsi 20 oktyabr 2021-ci il tarixində saat 14:00 Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 20 sentyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.09.2021
Kağızın formatı: (210x297) ¼
Həcm: 43807 işarə
Tiraj: 100